

## Oqtay ABDULLA

### Vaxtıdı

Açılmır millətin qaşı, qabağı,
Ömrümün, günümün talan vaxtıdı.
Yaşlanmaq dərd deyil, qocaldar məni,
İnsanlıq azalıb, nadan vaxtıdı.

Sərt dinir, danışır yoxdur həyası,
Varlanmaq dəb olub yarış xülyası.
Çapdırır atını namərd dünyası,
Papağı başımdan alan vaxtıdı.

Varmadıq fərqinə rüzigar əsir,
Qalmayan səbrimi bir az da kəsir.
Qəlbimdən hönkürüb ağlamaq keçir,
Könlümün, gözümün dolan vaxtıdı.

Bir quru nəfəsim, sonra nəyim var?
Zəncirlə bağlanmış inci duyğular.
Ölkəni talayır, çapır oğrular,
Axsağın arxada qalan vaxtıdı.

İnsanlar çox sevdim yeri, göyləri,
Bu kainat, bu günəş, nə var bəşəri.
Xoş xəbər gətirmir səba yelləri,
Ruhumda həyəcan, nalan vaxtıdı.

Əzəli sonu nə, xar olar könlüm,
Arzusu bar olmaz, ar olar könlüm.
Bu geniş dünyası, dar olar könlüm,
Çəmənin, çiçəyin solan vaxtıdı.

Rəngimə rəng qatıb boyama məni,
Onsuz da qınağam, qınama məni.
Ya Rəbbim, Oktayam, sınama məni,
Məddahın tamahın oğlan vaxtıdı.

### Allahım

Xəstə könlüm səni əlac buyurdu,
Nə təbibdi, nə loğmandı, Allahım!
Ovsunlayıb yoxsa məni nağıllar,
Mən etdiyim nə gümandı, Allahım!

Kef çəkənlər eyş-işrətdə, dəmində,
Dərd çəkirəm, dərd verirsən, qəmində.
Atəşim var, alovum var sinəmdə,
Bu nə atəş, nə tüğyandı, Allahım!

Mirvaridi söz aləmin inci tək!
Ağıl dərin, ürəyimin dinci tək.
Naşı deyil, söz oynadaq, incidək,
Nə sərsəri, nə nadandı, Allahım!

Əlləşirəm, alovunla közümnən,
Gül camalın nə alıbdı gözümnən.
Yeriyərəm ayağına dizimnən,
Yaratdığın nə canandı, Allahım!

İdrakımda yüngülləşdim, duruldum,
Dan ulduzu, meh camala vuruldum.
Mat eyləyib, heyrətdəyəm, qurudum,
Sirri kainat, kəhkaşandı, Allahım!

### Dünya mənim nəyimdi ki?

Yoxdur bizi görən gözü,
Bilinməyir əyri-düzü.
Namərd edib dünya bizi,
Dünya mənim nəyimdi ki?

Əkinçiyəm, dərd əkirəm,
Dünya bilmə dərd çəkirəm.
Dərd əhlinnən dərdləşirəm,
Dünya mənim nəyimdi ki?

Fərlisini fərsiz edib,
Qaydaları şərhsiz edib.
Bu dünyanı sevən sevib,
Dünya mənim nəyimdi ki?

Zalım dünya öz işində,
Dələduzlar vərdişində,
Qaynar qazan var içimdə,
Dünya mənim nəyimdi ki?

Söz verdiyi vaxtda gəlmir,
Haqq divanı taxta gəlmir.
Haqq dediymiz haqqa gəlmir,
Dünya mənim nəyimdi ki?

Sığal vurun, hamar çəkin,
Gecikməsin bostan, əkin.
Ürəyimə ümid səpin,
Dünya mənim nəyimdi ki?

Dərd əhliyəm, əl eylədim,
Yandı bağrım gəl eylədim.
Fikirimi ləl eylədim,
Dünya mənim nəyimdi ki?

Qurumasın alın tərim,
Yerindədir ağıl, sərim.
Ümidim var, Allah kərim,
Dünya mənim nəyimdi ki?!

### Yoxdu

Qəlbində olmadı sığnacaq yerim,
Bir ayrı ünvana səfərim yoxdu.
Bu dünya gözümdən elə düşübdü,
Açılan sabahım, səhərim yoxdu!

Ayrılıq ruhumun həmdəmi olub,
Sevincim, kədərim, çox qəmim olub.
Ah, mənim sevgimin gözləri dolub,
Qurbanlıq canım var, təhərim yoxdu.

Bir az da yaşlandım, neynim, beləyəm,
Sözün xiridarı, mən söz əhliyəm.
Gərdişi zamandan çox gileyliyəm,
Kövrək nağılım var, əsərim yoxdug

İstərdim hər sözün kəsəri olsun,
Açılan sabahı, səhəri olsun.
Söz de ki, mənası bəşəri olsun,
Veriləcək bir müjdə, bəhərim yoxdu.

Sel-sular içində indi hər yanım,
Oturub tikanlar üstə hər anım.
Zülümüm artdıqca, ağrıyır canım,
Atmağa bir həb-im, zəhərim yoxdu.

Oktayı bu dünya, namərd sevmədi,
Riyalar daş atdı, haqqı demədi.
Ay qız, o ağzın isti yerdədi,
Tək sənsən qəhərim, qəhərim yoxdu.

### Dünya

Gülmək istəyirəm, güldürməyirsən,
Bir açıb qəlbini bildirməyirsən.
Qurtarıb biryolluq öldürməyirsən,
Bağrımın yarası, xalısan, dünyag

Nə doydum bəmindən, nə də zilindən,
Baş alım, mən gedim hara əlindən?
Bir aç ürəyini, söylə, bilim mən,
Sən özün halımdan halısan dünya.

Bir isti nəfəsin, mürvətin yoxmu,
Var hələ qiyamın, möhnətin çoxmu.
Şairə ehtiram, hörmətin yoxmu,
Düşünmə Ələsgər Alısan, dünya.

Var topla, dağ olsa yenə hədərdi,
Yediyim mərgümüş, ağı zəhərdi.
Varlığın gözümdə zərrə qədərdi,
Demərəm mən sənə ulusan, dünya.

Bir dindir, danışdır, könlümü ara,
Qaradan de artıq varmı bir qara.
Yolun zülmətdir, gedirik hara?
İblisin, şeytanın yolusan, dünya.

Canımda ağrılar, gözlərim uymur,
Əlimi ağzıma aparım qoymur.
Əslində qıt olan gözlərin doymur,
Halallıq vermirəm udursan, dünya.

Oktayın sözünə diqqət et, gülmə,
Fağırı incidib, yoxsulu döymə.
Sahibi Zaman var, sahibsiz bilmə,
Məddahın tamahın valısan, dünya.